**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN FOLKLORUNDA MÖCÜZƏLİ DOĞULUŞ MOTİVİ

İxtisas: 5719.01 – Folklorşünaslıq

Elm sahəsi: Filologiya

İddiaçı: **Xalidə Şaiq qızı Məmmədova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilən dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı - 2022**

Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun "Dədə Qorqud" şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: Filologiya elmləri doktoru, dosent
**Ramazan Oruc oğlu Qafarlı**

Rəsmi opponentlər:
Filologiya elmləri doktoru, professor
**Qəzənfər Məhəmməd oğlu Paşayev**
Filologiya elmləri doktoru, dosent
**Ülkər Azad qızı Nəbiyeva**
Filologiya üzrə fəlsəfə doktoru, dosent
**Ağaverdi Sərxan oğlu Xəlilov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.27 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor
_______________ **Muxtar Kazım oğlu İmanov**

Dissertasiya şurasının elmi katibi: Filologiya üzrə fəlsəfə doktoru, dosent
_______________ **Afaq Xürrəm qızı Ramazanova**

Elmi seminarın sədri: Filologiya elmləri doktoru, dosent
_______________
**Əfzələddin Dağbəyi oğlu Əsgərov**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi**. Folklor mətnləri bir sıra elementlərdən təşkil olunur və onların təməl fikri motivlərdən əmələ gəlir. Süjetlər məhz motivlərə əsaslanaraq folklor mətnini bütövləşdirir. Dünyanın yaranması, kosmosda nizamın bərpa olunması və s.-lə yanaşı, insanların doğuluşu, yeni nəsillərin törəməsi, bir sözlə, artım ideyası da əsrlər boyu diqqət mərkəzində olmuşdur. İbtidai insanların doğuluş haqqındakı düşüncələri əvvəldən metaforik olmuş, onlar törəyişin magik mənbədən qaynaqlandığını düşünmüşlər. Doğuluş varlıqların meydana gəlməsinin simvoludur və yeni bir həyatın başlanğıcıdır. İlkin yaranışlar həmişə bir sıra adət-ənənənin daşıyıcısına çevrilir və özündə fərqli əlamətləri əks etdirir. Bu məna-da möcüzəli doğuluş motivi də ibtidai görüşlərin elə formasıdır ki, mahiyyətində ulu babalarımızın fövqəltəbii qüvvələrin gücü ilə dünyaya (təbiət hadisələrinə, ruhlara, insanların əhval-ruhiyyəsinə, sağlamlığına, xüsusilə törəyişə) təsir etməyin yolunun tapılmasına inam durur. Deyilənlərdən aydın olur ki, cəmiyyətin inkişafında müəyyən rol oynamış möcüzəli doğuluş motivinin hərtərəfli araşdırılması vacib və aktual məsələlərdən biridir.

Qədim insanlar hələ nəsil törəməsinin bioloji mahiyyətini anlamağa qadir olmadıqları çağlarda elə bilirdilər ki, uşağı dünyaya günəşin şüası, ayın parıltısı, dəniz sularının köpüyü, müxtəlif meyvələr gətirir. Onların gəldiyi ilkin qənaətə görə, körpə ərlə arvadın cinsi əlaqəsi nəticəsində deyil, qeyri-adi qüvvələrin yardımı ilə dünyaya göz açır. Beləcə möcüzəli doğuluş mötivinin təkamülünün araşdırılması ilkin törəyişin formalarının meydana gəlməsində böyük rola malik olan amilləri üzə çıxarır. Mövzunun aktuallığı bir də onunla şərtlənir ki, arxaik adət-ənənələrlə yoğrulan törəmə növləri

özündə tarixin müxtəlif institutlarının izlərini qoruyub saxlayır. Ona görə də hər zaman araşdırmaya açıq olan bu mövzu milli yaradıcılıq ənənələrini öyrənmək baxımından da maraq doğurur. Beləliklə, epik, lirik və dramatik folklorda folklor-mifoloji motivlərin işlək dairəsinin genişlənməsi bir sıra oxşar və fərqli məsələnin tipologiyasının aparılmasına, dünyanın milli prizmadan portretinin yaradılmasına, xalqın əski çağlardakı adət-ənənələri, davranış qaydaları, etno-mədəni göstəriciləri, yaşam və məişət tərzi barədə məlumatların əldə edilməsinə imkan yaradır.

Möcüzəli doğuluş motivi müxtəlif dövrlərdə tədqiqata cəlb olunub. P.Lafarqın 100 il öncə yazmış olduğu "Bakirə hamiləlik mifi [1] adlı məqaləsində problemin tarixi kökləri araşdırılmış, möcüzəli doğuluş motivinin bağlı olduğu partenogenez (yəni bakirə döllənmə) inanclarının tarixinə və əsl mahiyyətinə aydınlıq gətiril-miş, bakirə hamiləlik ibtidai inanc formalarından biri kimi tədqiq olunmuşdur. J. Kempelin ilk dəfə 1949-cu ildə nəşr etdirdiyi "The hero with a thousand faces" (tərcüməsi: "Min üzlü qəhrəman") [2] kitabının II hissəsinin II fəsli "The virgin birth" (tərcüməsi: "Bakirə doğum")[3] adlandırılıb. Bu fəsildə bakirə qadından doğulan uşaqlar haqda (Folk stories of virgin motherhood) dünya xalqlarının folklorunda izlənilən örnəklərin bir-birindən əsaslı fərqlənmədiyi, bənzərliklərin daha çox olduğu aydınlaşdırılıb. Möcüzəli doğuluş motivinin tədqiq olunduğu ilk mənbələrdən biri də, özündə təqribən 45000 folklor motivini əks etdirən Tompson Motiv İndeksi (TMİ) [4]

---

[1] Лафарг, П. Религия и капитал / П.Лафарг. – Москва: Огиз, – 1937. – с.136

[2] Campbell, J. The hero with thousand faces / J.Campbell. – USA: Princeton University Press, – 2004.

[3] Yenə orada: p. 288.

[4] S. Thompson. Motif-index of folk-literature : a classification of narrative elements in folktales, ballads, myths, fables, medieval romances,

kataloqudur. Tədqiqat zamanı TMİ-nin yenidən işlənmiş və genişlənmiş variantının rəqəmsal versiyasına nəzər salmışıq. Möcüzəli doğuluş motivinin adına "T-Sex" (Azərbaycanca: "Cinsiyyət") bölümündə – "Conception and birth" (Azərbaycanca: "Yaradılış (burda: Mayalanma– X.M) və doğuluş") başlığı altında rast gəlirik.

Ötən əsrin birinci yarısından başlayaraq rus folklorşünası V.Propp da məsələyə münasibət bildirərək "Möcüzəli doğuluş motivi [5] (orijinalda: "Мотив чудесного рождения") adlı məqalə ilə çıxış etmişdir. O, özünün bu sahədəki çox ciddi və yeni araşdırmasını nağıllar üzərində tədqiq edərək möcüzəli doğuluş motivinin ayrı-ayrı növləri haqqında məlumat vermişdir. V.Propun tədqiqat obyekti rus və dünya xalqlarının nağılları olmuşdur. Digər rus müəllifləri: V.Jirmunski[6] və E.Meletinski[7] isə möcüzəli doğuluş motivini türkəsilli Sibir xalqlarına məxsus qəhrəman obrazlarının simasında araşdırmaya cəlb etmişlər. Bu müəlliflərin əsas tədqiqat obyekti altay, yakut, şor nağıl və dastanları olmuşdur.

Azərbaycan folklorşünaslığında da möcüzəli doğuluş motivinin semantikasına bir çox alimlər ümumi şəkildə nəzər yetirmişlər. M.H.Təhmasib ilkin ibtidai təxəyyülün məhsulu olan nağıllarımızda, həmçinin dastanlarımızda möcüzəli

---

exempla, fabliaux, jest-books, and local legends: http://www.ruthenia.ru/folklore/thompson/

[5] Пропп, В. Фольклор и действительность / В.Пропп. – Москва: Наука, – 1976. – с. 205-240.

[6] Жирмунский, В. Тюркский героический эпос / В.Жирмунский. – Ленинград: Наука, – 1974. – с. 224.

[7] Мелетинский, Е. Происхождение героического эпоса / Е.Мелетинский. – Москва: Восточная литература, – 2004. – с. 317-329.

doğuluş motivinin geniş yayıldığına diqqət çəkmişdir [8]. M.Kazımoğlu sehrli almadan törəyən övlad-lar motivini möcüzəli doğuluş motivinin bir qolu kimi təhlilə cəlb etmişdir[9]. R.Qafarlı nağıllarda doğulmanın obrazlı təsvirini tədqiq etmiş, sehrli nağıl süjetinin xüsusiyyətlərini incələyərkən möcüzəli doğuluşu sehrli nağıl poetikasının ilkin elementi hesab etmişdir [10]. R.Əliyev Azərbaycan nağıllarında mifik görüşləri tədqiq edərkən möcüzəli doğuluş motivindən yazmışdır [11]. F.Bayat oğuznamənin variantları haqqında tədqiqat apararkən qəhrəmanın atasız doğulması motivinə diqqət çəkmişdir[12]. C.Bəydili türk mifologiyasının terminologiyasını hazırlayarkən möcüzəli doğuluş motivinə toxunmuş, nağıllardakı bəzi epizodların, o cümlədən möcüzəli doğuluş motivinin mif dünyasından gəldiyini vurğulamışdır [13]. Ə.Əsgər Azərbaycan sehrli nağıllarında qəhrəman-bahadır obrazlarının epik taleyini möcüzəli şəkildə doğulmaları ilə bağlamışdır[14]. O.Əliyev möcüzəli doğuluş motivini ilk insanlar haqqında miflərlə əlaqələndirmişdir[15]. İ.Rüstəmzadə bir çox motivlərlə yanaşı, möcüzəli doğuluş

---

[8] Təhmasib, M. Seçilmiş əsərləri / M.Təhmasib. – Bakı: Mütərcim, – c.1. – 2010. – 226-227.

[9] Kazımoğlu, M. Folklorda obrazın ikiləşməsi / M.Kazımoğlu. – Bakı: Elm, – 2011. – s. 18-19.

[10] Qafarlı, R. Mif və nağıl (epik ənənədə janrlararası əlaqə) / R.Qafarlı. – Bakı: ADPU-nun nəşri, – 1999. – s. 148.

[11] Əliyev, M. R. Azərbaycan nağıllarında mifik görüşlər / R.M.Əliyev. – Bakı: Elm, – 1992. – s. 50-54.

[12] Bayat, F. Oğuz epik ənənəsi və "Oğuz Kağan" dastanı / F.Bayat. – Bakı: Sabah, – 1993. – s. 141.

[13] Bəydili, C. Türk mifoloji sözlüyü / C.Bəydili. – Bakı: Elm, – 2003. – s. 274-275.

[14] Əsgər, Ə. Azərbaycan sehrli nağıllarında qəhrəman / Ə.Əsgər. – Bakı: Elm və təhsil, – 2017. – s. 73.

[15] Əliyev, O. Azərbaycan nağıllarının poetikası / O.Əliyev. – Bakı: Səda, – 2001. – s. 17.

motivindən də tərtib etdiyi "Azərbaycan nağıllarının süjet göstəricisi" kitabında bəhs etmişdir[16]. Göründüyü kimi, möcüzəli doğuluş motivinə Azərbaycanda nağıl və dastanlara aid tədqiqatlarda süjet xəttinin başlanğıc əlaməti kimi ötəri toxunulsa da, bu günə qədər ona ayrılıqda xüsusi bir tədqiqat əsəri həsr olunmamışdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektinə Azərbaycan folklorunun arxaik janrlarından tutmuş epik, lirik və drammatik janrları cəlb edilmişdir. Qədim inanclarla yanaşı, əfsanə, rəvayət, nağıl və dastanlarda möcüzəli doğuluş motivinin rəngarəng təsvirlərinə rast gəlinməkdədir. Möcüzəli doğuluş motivinin ayrı-ayrı növlərinin öyrənilməsi, təsvirlərin bir araya gətirilib, digər türksoylu və dünya xalqlarının folklor mətnləri ilə müqayisə etmək, Azərbaycan folklorunda özünəməxsus şəkildə işləndiyini üzə çıxarmaq tədqiqatın əsas predmetidir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın aparılmasında başlıca məqsəd beynəlxalq möcüzəli doğuluş motivi növlərinin Azərbaycan folklorunda da zəngin olduğunu sübut etmək, orijinal əlamətlər daşıdığını göstərməkdən ibarətdir. İnsanın necə ortaya çıxması ilə bağlı mülahizələri öyrənmək və öyrəndiklərimizi dissertasiyada tanıtmaq məqsədilə aşağıdakı vəzifələr yerinə yetirilmişdir:

– Möcüzəli doğuluş motivinin arxaik köklərini və mifoloji semantikasını tədqiq etmək;

– Problemə sistemli şəkildə yanaşaraq möcüzəli doğuluş motivinin ifadə formalarını müəyyənləşdirmək, möcüzəliliyin xarakterik xüsusiyyətlərini və fərqli şəkillərini üzə çıxarmaq;

– Motivin əsasındakı arxaik mifoloji təsəvvürlərin izlərini aşkarlamaq;

---

[16] Rüstəmzadə, İ. Azərbaycan nağıllarının süjet göstəricisi / İ.Rüstəmzadə. – Bakı: Elm və təhsil, – 2013. – s. 41.

– Möcüzəli doğuluş motivinin mənşəyinin ilk insan (insanlar) haqqında mif mətnlərinə bağlılığını milli folklor nümunələrinin kö-məyilə əsaslandırmaq;

–Yaradılış mətnlərini möcüzəli doğuluş motivinin ilkin qaynağı kimi təqdim etmək və Azərbaycan folklorunda qeydə alınmış misalları dünya ölkələrinin yaradılış mətnləri ilə müqayisə etmək;

– Möcüzəli doğuluş motivinin mifik Dünya Modelini formalaşdıran əsas ünsürlərlə – torpaq, ağac, su, od, eləcə də heyvan kultu (totemizm) ilə bağlılığını göstərmək;

– Müəyyən sehr düsturlarının doğuluş məqamında, eləcə də ana bətnində mayalanma baş verəndə və ona qədərki dövrdə icra edilməsini göstərmək, bu təsvirin dünyaya gələcək yeni insanla bağlılığının səbəbini aydınlaşdırmaq;

– Möcüzəli şəkildə doğulan qəhrəmanları himayə edən müqəddəs və demonik varlıqların rolunu üzə çıxarmaq;

– Epik folklorun ayrı-ayrı janrlarında motivin funksiyasını aşkar etmək;

– Epik folklordakı fərqli obyekt və predmetlərin etiologiyasının möcüzəli doğuluş motivi ilə izah edildiyini üzə çıxarmaq;

– Dini şəxsiyyətlərin, övliyaların və peyğəmbərlərin möcüzəli şəkildə doğuluşunu təsvir edən rəvayətlərin semantik təhlilini aparmaq;

– Azərbaycan folklorunda daha çox nağıl və dastanlarda təsadüf edilən doğuluş epizodlarının möcüzəli xarakterini şərtləndirən amilləri üzə çıxarmaq;

– Lirik və dramatik folklorda: əmək və mərasim nəğmələrində, layla və oxşamalarda, bayatılarda, aşıq poeziyasında, oyun və tamaşalarda möcüzəli doğuluş motivi ilə səsləşən məqamları üzə çıxarmaq;

– Bətndaxili inkişaf və ona qədərki dövr ərzində həyata keçirilən mərasimlərin, qurbankəsmə, alqışoxuma,

nəzirpaylama, sehr, cadu, tilsim və bu kimi ritual elementlərin kökündə dayanan qədim inanclarımızda möcüzəli doğuluş motivinin izlərini göstərmək;

**Tədqiqat metodları.** Araşdırma möcüzəli doğuluş motivinin mifoloji qaynaqlarına, növlərinə həsr olunmuşdur. Əldə olan əksər folklor külliyyatı nəzərdən keçirilmiş, digər xalqların folklor mətnləri ilə müqayisə edilmişdir. Bütün diqqətimizi yönəltdiyimiz folklor külliyyatımızda möcüzəli doğuluş motivini struktur-semiotik yanaşma ilə – yəni onun bütün səviyyələrində təhlil etmişik. Bu motivin aktivliyini mətnlərlə, variantlarla yəqin etmişik. Araşdırmada həmçinin möcüzəli doğuluş motivini tədqiq etmiş xarici ölkə folklorşünas-larının əsərlərinə istinad edilmişdir. Bu sahədə V.Propp, V.Jirmunski, E.Meletinski, A.Veselovski [17] və digərlərinin araşdırmalarında istifadə edilən metoddan, yəni tarixi-müqayisəli, nəzəri-tipoloji metodlardan yararlanılmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

– Möcüzəli doğuluş motivinin tarixi köklərini müəyyən edərkən bir daha anlaşılır ki, ilk insanların yaranması haqqında miflər əsas mifoloji qaynaq hesab olunur;

– Möcüzəli doğuluş motivi mifik Dünya Modelini formalaşdıran əsas ünsürlərlə – torpaq, ağac, su, od, eləcə də heyvan kultu (totemizm) ilə birbaşa bağlıdır;

– Möcüzəli doğuluş motivinin mifoloji qaynaqları arasında bakirə hamiləlik mifinin mövcudluğu da inkarolunmaz fakt kimi özünü göstərir;

– Möcüzəli doğuluş motivi epik folklorda süjetin dinamikasına birbaşa təsir göstərir, bədii mətnin formalaşmasında əsas vasitələrdən biri kimi çıxış edir, xaosdan çıxışı və kosmosun bərpasını əks etdirir;

---

[17] Веселовский, А. Историческая поэтика / А.Веселовский. – Москва: Художественная литература, – 1940. – с. 533-540.

– Azərbaycan nağıllarına əsasən möcüzəli doğuluş motivinin 6 əsas qrupa daxil edilmiş bir çox növləri vardır;

– Möcüzəli doğuluş motivinə bağlı olan bəzi epizodlar isə lirik və dramatik folklorda qarşıya çıxan folklor mətnlərinə əsasən geniş şəkildə təsvir olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işi möcüzəli doğuluş motivinin epik, lirik, dramatik folklorun əsas janrları çərçivəsində öyrənilməsinə həsr olunmuş ilk araşdırma kimi bir çox elmi yeniliklərə malikdir.

– İşin ən mühüm elmi yeniliyi problemin ilk dəfə sistemli və əhatəli şəkildə araşdırılmasıdır. Bu mənada möcüzəli doğuluş motivinin nəzəri əsasları ilə bağlı boşluğu doldurmağa çalışmışıq. Uyğun olaraq çoxsaylı mənlər nəzərdən keçirilmişdir.

– Araşdırmada möcüzəli doğuluş motivinin mifoloji qaynağı kimi ilk insanların yaranması ilə bağlı miflər əsas götürülmüş, Azərbaycan folklorşünaslığında sistemli şəkildə ilk dəfə tədqiq edilmiş və məlum olmuşdur ki, yaradılış mətnlərində bu motiv özünü aydın şəkildə göstərir;

– Möcüzəli doğuluş motivində ilkin stixiyaların əsas vasitə olduğu aşkara çıxarılmış və bakirə hamiləlik mifindən yaranan folklor nümunələri bir araya gətirilib təhlilə cəlb edilmişdir;

– Bakirə hamiləlik mifinin Azərbaycan folklor nümunələri əsasında növləri (ceyran ətindən doğuluş, ölüdən doğuluş, tüpürcəkdən – ağız suyundan doğuluş, sehrli muncuqdan doğuluş) müəyyən olunmuşdur.

– Möcüzəli doğuluşla bağlı təsəvvürlər ayırd edilərkən məzmun və formaya görə iki situasiya bir-birindən ayrılmışdır: 1. Möcüzəli mayalanma (Miraclouse conception). 2. Möcüzəli doğuluş (Miraclouse birth).

– Möcüzəli doğuluş motivinin Azərbaycan folklorundakı epik, lirik və dramatik janrlarındakı təsvir üsulları aydınlaşdırılmışdır.

– Azərbaycan nağılları əsasında möcüzəli doğuluş motivinin növləri müəyyən edilmişdir.

– Azərbaycan dastanlarında doğuluşun sehrli xarakter almasına yönələn fəaliyyət aktlarının (sehrli almanın təqdim olunması, alqışlar, dualar (yalvarışlar), xeyriyyəçilk fəaliyyəti, qurbankəsmə ayinləri, müqəddəs yerləri ziyarət etmə ritualları, nəzir paylamalar və s.) xarakteri müəyyən edilmişdir.

– Mötivin aşkarlanan bəzi növlərində islamiyyətdən əvvəlki mifik dünyagörüşünü yaşadan qədim epizodların izi tapılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işində ilk dəfə olaraq möcüzəli doğuluş motivi folklor külliyyatına məxsus əsas janrlar içərisində tədqiq edilmişdir. Araşdırma möcüzəli doğuluş motivi ilə bağlı bir çox nəzəri fikirləri cəmləyərək onun folklor mətnlərindəki çəkisini qiymətləndirmişdir. Bununla bərabər, tədqiqat işində nağıl və dastanlarımızda, hətta digər janrlarda – əfsanə və rəvayətlərdə, qədim inanclarda, rituallarda doğuluş motivinin möcü-zəli xarakterdə olduğu aşkarlanmış və hər birini ayrıca tədqiqata cəlb etmək zərurəti yaranmışdır. Tədqiqatda əldə olunan nəticələr digər motivlərin və başqa xalqların mədəniyyətinin köklərini öyrənməkdə nəzəri baza rolunu oynaya, əsas obyektə, ali məktəblərin folklor və mifologiya kurslarının tədrisində istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi**. Dissertasiya işi AMEA Folklor İnstitutunun "Dədə Qorqud" şöbəsində yerinə yetirilmişdir. Mövzu ilə bağlı bir sıra elmi konfranslarda məruzələr edilmiş, ayrı-ayrı elmi məcmuələrdə tezislər və məqalələr çap olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** Tədqiqat işi Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun "Dədə Qorqud" şöbəsində hazırlanmışdır. Dissertasiyanın mövzusu AMEA Folklor İnstitutunun Elmi Şurasının 31 mart 2017-ci il tarixli iclasında (protokol № 3) təsdiq olunmuşdur. Mövzu Azərbaycan Respublikası Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurasının Folklorşünaslıq problemləri üzrə Elmi Şurasının 19 aprel 2018-ci il tarixli iclasında (protokol № 4) təsdiq olunmuşdur.

**Dissertasiyanın ümumi həcmi**. Dissertasiya işi giriş (17109 işarə), I Fəsil (127165 işarə), II Fəsil (97671 işarə), nəticə (14387 işarə) və ədəbiyyat siyahısından ibarət olmaqla, ümumi həcmi 278311 işarədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

İşin ümumi səciyyəsini əks etdirən **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılmış, öyrənilmə səviyyəsi, elmi yeniliyi, məqsəd və vəzifələri müəyyənləşdirilmiş, nəzəri və praktik əhəmiyyətindən, tədqiqat zamanı istifadə olunan metod və mənbələrdən bəhs olunmuş, işin aprobasiyası və quruluşu haqqında məlumat verilmişdir.

Dissertasiyanın "**Möcüzəli doğuluş motivi və arxaik mifoloji təsəvvür"** adlanan I fəslinin "**Möcüzəli doğuluş motivinin mifoloji qaynaqları"** adlı I paraqrafında bildirilmişdir ki, möcüzəli doğuluş motivinin əsasını, adından da göründüyü kimi, insanın qeyri-adi şəkildə, əksər hallarda sakral vasitələrlə, fövqəltəbii yolla dünyaya gəlməsi təşkil edir. Elmə insanın yaranması ilə bağlı antropoqonik (törəyiş) miflər məlumdur ki, lap başlanğıcda formalaşan ən arxaik düşüncə və yaradıcılıq hadisəsidir, sonralar şüurlu canlının meydana gəlməsinin bədii təzahürünə çevrilərək ayrı-ayrı

epik mətnlərin mühüm elementi olmuşdur. Məşhur rus folklorşünası V.Propp folklor mətnlərində möcüzəli doğuluş motivini nəzərdən keçirərkən onun tarixi əsaslarını aşkar etmiş və bu nəticəyə gəlmişdir ki, mənşəyi etibarilə möcüzəli doğuluş motivi yekcins deyil, onun təkamülü bir neçə mərhələdən ibarətdir. Alim haqlı olaraq möcüzəli doğuluş motivinin yaranma mənbəyini 3 qrupa ayırmışdı: "

1. *Totemizmlə bağlı təsəvvürlər;*

2. *Bitki aləminin həyatverici qüvvəsi ilə bağlı təsəvvürlər (bəzən totemizmin izləri ilə);*

3. *İlk insanların yaranması haqqındakı miflərə gedib çıxan motivlər* "[18].

Əlbəttə, ilkin törəyiş miflərini möcüzəli doğuluş mətnləri ilə qarışdırmaq olmaz. Lakin hər ikisinin əsasında insanın dünyaya göz açması təsəvvürü dayanır. Məqsədimiz həmçinin möcüzəli doğuluş motivini struktur-semiotik yanaşma ilə bütün səviyyələrdə təhlil etməkdən ibarətdir. Bu təhlillərin köməyilə "*mətnlərin dəyişən və dəyişməyən tərəflərini*"[19] bir-birindən fərqləndirməyə çalışmışıq.

Ümumiyyətlə, ilk insanlarla bağlı müxtəlif motivlərin təsvir olunmasına baxmayaraq, bu mövzudakı törəyiş – yaradılış mətnləri, əsasən Adəm və Həvvanın adı ilə bağlanılmaqdadır. Bu tip mətnlər Azərbaycan türklərinin folklorunda da diqqətimizi çəkmişdir.

Azərbaycan türklərinin ilk insanın möcüzəli yaradılışına həsr olunan miflərində konkret adın çəkilməməsi və "ilk insan", "insanoğlu" kəlmələrinin işlədilməsi də daha çox yayılmışdır; hansı ki, bu məfhumlar Adəm və Həvvanın, Ece və Törüngeyin (qadağan olunmuş meyvəni yediklərinə görə

---

[18] Пропп, В. Фольклор и действительность / В.Пропп. – Москва: Наука, – 1976. – с. 237.

[19] Rzasoy, S. Mifologiya və Folklor: Nəzəri-metodoloji kontekst / S.Rzasoy. – Bakı: Nurlan, – 2008. – s.35.

cəzalandırılaraq cənnətdən qovulan ilk insanlar) ümumiləşmiş obrazını özündə ehtiva edir. Bu mövzu ilə bağlı məqaləmiz "Dədə Qorqud" jurnalında dərc olunub[20].

**"Bakirə hamiləlik mifi"** adlandırılan bənddə milli folklorda qeyd olunan bir çox mətnlərin bütün dünya folklorunda olduğu kimi, partenogenez nəzəriyyəsini əks etdirdiyi vurğulanmışdır. Bu nəzəriyyə özündə qadının kişi cinsinin iştirakı olmadan uşaq dünyaya gətirməsi ilə bağlı inamları (bakirə döllənmə hadisəsini) ehtiva edir.

Bakirə analığa dair folklor örnəklərini bir araya toplayan J.Kempel xalq inanclarına əsasən müşahidə edib ki, yanlışlıqla udulan bir yarpaq, bir yemiş, hətta bir nəfəs belə hazır olan ana bətnini dölləmək üçün yetərli ola bilər[21]. P.Lafarq qeyd edib ki, üç yunan tanrıçası – Yunona, Minerva, Diana ərsiz olmaqlarına baxmayaraq, bir neçə dəfə ana olublar. Çox qədimlərdə Yunanıstanda bakirəlik anlamı bugünkü məna yükünə sahib olmayıb, sadəcə olaraq, ərdə olmayan qadının oğluna "parthenias" (rusca, "сын девы" – yəni, bakirə oğlu) deyiblər. Lakin zaman keçdikcə bakirə ana miflərdə obrazlaşdırılıb və kişinin iştirakı olmadan analıq (rusca: мать без содействия) kimi düşünülməyə başlanıb[22]. Aydınlaşdırıldı ki, milli folklorun bəzi möcüzəli qəhrəmanları da sözügedən bakirə hamiləlik nəticəsində yaranmışdır. "Göy mıncıx", "Kəsik baş", "Quru kəllə", "Ceyran" , "Reyhan" və "Kəl Həsənin nağılın"da qəhrəmanlar məhz kişi cinsinin iştirakı olmadan ana bətnində döllənir.

---

[20] Məmmədova, X. Möcüzəli doğuluş motivinin tarixi kökləri: (Doğuluşun torpaq stixiyası ilə bağlılığı) // Bakı: Dədə Qorqud, – 2017. № 2 (61), – s. 132-140.

[21] Campbell, J. The hero with thousand faces / J.Campbell. – USA: Princeton University Press, – 2004. – p. 288.

[22] Лафарг, П. Религия и капитал / П.Лафарг. – Москва: Огиз, – 1937. – с.136-138.

Həmçinin Türk mifologiyasında da bakirə qızlardan doğulmuş uşaqlarla bağlı özünəxas əhvalatlar dolaşır. Bu əhvalatların birində "*kocaya varmamış kızdan doğulan aşurilər*"[23] haqda danışılır.

I fəslin **"Möcüzəli doğuluş motivi və arxaik kultlar"** adlı II paraqrafında arxaik kult ənənələri təhlilə cəlb edilmişdir. Doğuluş motivinin möcüzəli xarakter alması üçün arxaik kultların daşıdığı funksiyanın geniş şəkildə təhlili aparılmışdır. Bir daha aydın olur ki, "*maddi əşyalara və varlıqlara fetişizm mövqeyindən yanaşılması itaət və ibadətin daha universal dayağını – kultları meydana gətirmişdir*"[24]. Bu paraqrafın "**Torpaq kultu"** adlı I bəndində bildirilir ki, Azərbaycan folklor mətnlərində ilk insanın torpaqla əlaqələndirilməsinin alternativi, demək olar ki, yoxdur.

Arxaik olaraq antropoqonik mifləri kosmoqonik miflərin bir davamı kimi qəbul ediriksə, insanın törəyişinin torpaq və ya su stixiyası ilə bağlanması məntiqi cəhətdən ağlabatan görünür. "*Göyün yeddi qatı var; birinci qat torpaxdı ki, qara camaat yaşayır"*[25] deyən Azərbaycan türkləri ücün, qeyd edildiyi kimi, torpağın müqəddəsliyi əsas götürülür. İnsana müraciətlə deyilən "*torpaq kimi bərəkətli ol*"[26] deyimi insanın məhsuldarlıq simvolu olmasını vurğulayır.

Möcüzəli doğuluş motivinin müxtəlif variantlarından bəhs edərkən Yerin – torpağın ana bətni rolunu oynaması ilə bağlı nəzəri fikirlərə və praktiki misallara (folklor mətnlərinin köməyilə) istinad etmək mühüm əhəmiyyət kəsb edir.

[23] TDEMA / pr. yür. S.Tural. – Ankara: – Atatürk Kültür Mərkəzi Başkanlığı Yayınları, – c. 1. – 2001. – s. 533-539.

[24] Qafarlı, R. Azərbaycan türklərinin mifologiysı: / filologiya üzrə elmlər doktoru dissertasiyanın avtoreferatı / – Bakı, 2010. – 59 s.

[25] Azərbaycan mifoloji mətnləri / topl. və tərt. ed. A.Acalov A. – Bakı: Elm, – 1988. – s. 35.

[26] Atalar sözü / top. Ə.Hüseynzadə, tərt. ed. B. Tahirbəyov – Bakı: Yazıçı, – 1985. – s. 608.

Gəldiyimiz nəticə ondan ibarətdir ki, ilk insanların yaradılması, əski etiqadlara əsasən, Tanrı qüdrətilə baş vermişdirsə də, torpaq burda da simvolik olaraq ana bətni obrazında çıxış etmişdir. Həmçinin, Yerin – torpağın antropomorfik olması ilə bağlı digər türkəsilli xalqlardan (altay, yakut) toplanılmış mif mətnlərində Yer Ana deyilən mifoloji varlıqdan bəhs edən məlumatlar da az deyildir. Hansı ki, qadınları himayə edərək, xüsusilə də doğulmanı, artmanı dəstəkləyərək Yerin – torpağın obrazı rolunda görünür.

Torpaqla başlayan ideya cansız obyektlərdən doğulmanın mümkünlüyünə inancın bünövrəsini qoymuşdur. Hansı ki, Azərbaycan folklor nümunələrinin böyük bir qismi sözügedən inancların (atalar sözündən tutmuş dastanlara qədər) geniş şəkildə işıqlandırıldığı, sadə və aydın formada nəql olunduğu, üslubu, təhkiyəsi, təsvir vasitələri ilə doğuuluş motivini ifadə edən örnəklərdir. Həmçinin nümunələrdən də görünür ki, bu örnəklərdəki möcüzəli doguluş motivi əslində törənişlə bağlı miflərdə mövcud olan ilk insanın və ya mədəni qəhrəmanların yaradılışlarını təkrarlamaqdadır. Sadəcə unutmamaq lazımdır ki, ilk insanın məhz torpaqdan yaradılmasını təsvir edən miflər mükəmməlləşərək möcüzəli doğuluş motivinin yenə də nüvəsini təşkil etmiş və sakrallığını qoruyub saxlamışdır. Deməli, bu məntiqlə belə bir fikir reallaşır: sudan, agacdan və ya hər hansı bir meyvədən, dağdan və ya daşdan və s.-dən doğulmanın – törəmənin torpaqdan yaranma ilə bilavasitə əlaqəsi vardır. Bu əlaqənin izləri həmçinin Azərbaycan turklərinin rituallarında da təntənəli şəkildə təqdim olunmaqdadır.

**“Ağac kultu”** adlı II bənddə təhlil edilən miflərə əsasən, ağacın struktur xüsusiyyətləri arasında onun antropomorflaşması ön plana çəkilir: ağac doğur, ağac doğulur, ağac ilk yaradıcı rolunda çıxış edir. (Qeyd edək ki,

burda ağac şərti xarakter daşıyaraq məzmununda bir çox məfhumları – bütün bitkilər aləmini, otları, çiçəkləri, meyvələri də ehtiva edir). Bir çox mətnlərdə daşa, quşa, həmçinin ağaca çevrilmənin bədii semantikası ondan ibarətdir ki, bu cansız əşyalar bilavasitə insanın elə törədiyi təbii obyektlərdir. Bu obyektlər, hətta bəzən əcdad kimi də dəyərləndirilə bilər. Ağaca sitayiş edib ondan övlad istəmə arxaik təsəvvürlərə malik olan insanların təfəkkür tərzinin hansı səviyyədə olduğunu göstərir. Bu səviyyəyə nəzər saldıqda bilmək olur ki, kainatın yaradılması anında xaosu nizamlayan göstəricilər içərisində Dünya ağacının əsas kimi vurğulanması ağac məfhumunun kulta dönəcəyini əsla inkar etmir. A.Hacılının bildirdiyinə görə, Dünya ağacının çeşidli şəkil dəyişmələrindən olan Qaba ağac – nəsil ağac türk folklorunda geniş intişar tapıb[27].

İçi oyuq ağacların ana bətninin simvolu kimi göstərilməsi də ağacın qadın kimi doğurqan olduğuna inamın dərin kök saldığına bir işarədir. Nəzərdən keçirdiyimiz milli folklor külliyyatı içərisində möcüzəli doğuluşun bu detalları, yəni ağac oyuğunda dünyaya gəlmə sadəcə inanc kimi yaddaşlarda qalmışdır.

Məlum olduğu kimi, hər bir xalqın daha çox dəyər verdiyi bitkilər və ya meyvələr vardır. Azərbaycan folklorunda qarşımıza çıxmış və möcüzəli doğuluş motivinin təsvirində üstünlük təşkil edənlərdən bəhs açmaq lazımdır. Bəhs edəcəyimiz meyvələr və ya bitkilər ağac kultundan qaynaqlanaraq doğuluş motivlərində möcüzə və sehr yaratmaq gücünə malik olurlar. Dissertasiyada həmçinin meyvələr və döllənmə arasında əlaqə haqqında təsəvvürlərin milli folklorumuzda da özünəməxsus şəkildə təsvir olunduğundan danışılıb. Alma ağacının meyvəsini yeməklə

[27] Hacılı, A. Mifopoetik təfəkkür fəlsəfəsi / A.Hacılı. – Bakı: Mütərcim, – 2002. – s. 11.

hamilə qalmaq möcüzəli doğuluş motivinin tədqiq olunduğu Azərbaycan folklorunda, xüsusən də nağıl və dastanlarımızda tez-tez qarşıya çıxan təsvirlərdən biridir. Aydın olduğu kimi, ovsunlanmış alma bu motivin özəyini təşkil edir. Bu mövzu ilə bağlı beynəlxalq konfransların birində məruzə ilə çıxış edilmişdir[28].

**"Od kultu"** bəndinə görə, odu günəşin yerdəki rəmzi kimi qəbul etsək, Azərbaycan folklorunda günəşin övlad verib möcüzəli doğuluş motivinin səbəbkarı kimi göstərilmiş nümunələrinə diqqət etməmiz gərəkli olar. Bu baxımdan, ən bariz nümunə "Tapdıq" [29] nağılıdır. Bu, Azərbaycan folklorundakı o nağıllardandır ki, günəşin övlad verməsi (doğması) inancını bu qədər dəqiqliyi ilə təsvir edə bilsin. "Tapdıq" nağılından fərqli olaraq qarşımıza çıxan digər bir mətndə gün işığı yox, göydən gələn işıq möcüzəli şəkildə övladı olmayan qadına yaxınlaşaraq hamiləliyə səbəb olur. Burda "Tapdıq" nağılından fərqli olaraq işıq bakirə hamiləlik miflərində olduğu kimi, qadının vücudunda döllənmənin baş verməsi üçün fallik rolda çıxış edir[30].

**"Su kultu"** bəndində vurğulanmışdır ki, ümumiyyətlə, antik çağ insanları yağışlar yağıb torpağın canına hopduqca bir canlanma yarandığını, məhsuldarlığın artdığını müşahidə etmişlər. Suyun bütün təbiətdə törətdiyi artım onların nəzərindən qaça bilməzdi. Su canlandırır, həyat verir, çiçəkləri gül açmağa, otları böyüməyə vadar edir. O, həyatı törədir. Suyu içdikcə insanda da yeni həyat yarana bilər. Bir

---

[28] Şaiqqızı, X.M. Alma – möcüzəli doğuluş motivinin prioritet meyvəsi kimi // Azər-baycan elminin və təhsilinin müasir problemləri mövzusunda Beynəlxalq Elmi Kon-fransının materialları, Bakı: Zərdabi Nəşr, – Qazax : 25 may, – 2019, – s. 373-378.

[29] Azərbaycan folklor külliyyatı: [30 cilddə] / tərt. ed. H.İsmayılov, O.Əliyev. – Bakı: Səda, – c.2. – 2006. – s. 3.

[30] Azərbaycan folklor antologiyası: [23 cilddə] / Göyçə folkloru / topl. və tərt. ed. H. İsmayılov. – Bakı: Səda, – c. 3. – 1999. – s. 171.

daha aydınlaşır ki, suyun mayalandırıcı gücü haqqında təsəvvürlər də təsadüfən yaranmamışdır. Azərbaycan xalq nağılları içərisində suyun sehri ilə ana bətnində döllənmənin başvermə gücü "Reyhanın nağılı"nda açıq-aydın görünür[31]. Suyun magik gücünün döllənməyə səbəb olduğu folklor mətnlərinin simasında görürük ki, möcüzəli doğuluş motivini qurmaq üçün ya suyu içirlər, ya da suda çimirlər. Tədqiqatçılar inanclardan çıxış edərək su və kişi məni arasında bərabərlik işarəsi qoyur, həmçinin suyun məhsuldarlığı artırmaq qabiliyyətinə işarə edirlər[32]. Möcüzəli doğuluş motivində od və su kultlarının hər ikisi haqqında işıq üzü görmüş eyni məqalədə bəhs edilmişdir[33].

**"Heyvan kultu"** bəndinə görə**,** bir çox dünya xalqlarında mənşə miflərinin, yəni etnoqrafik miflərin əsas qəhrəmanları məhz totem heyvanlardır. Totem heyvanlar dedikdə toplumun düşüncəsinə görə, onların ataları sayılan heyvanlara verilən ad nəzərdə tutulur. "*Hesab edilir ki, möcüzəli mayalanma motivinin mənbələri anaxaqanlıq dövründə meydana çıxdığı kimi, totem-əcdaddan möcüzəli döllənmə haqqında mifoloji təsəvvürlər də həmin dövrdə yaranmışdı"*[34]. "Dədə Qorqud kitabı"nda "Basatın Təpəgözü öldürdüyü boy"da qəhrəmanın

---

[31] Azərbaycan nağılları / tərt.ed. Ə.Axundov. – Bakı: Şərq-Qərb, – c.4. – 2005. – s. 130.

[32] Краюшкина, Т. Чудесные дети и их появление на свет в русских народных волшебных сказках Сибири и Дальнего Востока // – Улан- Уде: Вестник Бурятского Государственного Университета, 2009. №10. – с. 279..

[33]Məmmədova, X. Möcüzəli doğuluş motivində od və su kultları // – Bakı : Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, – 2018. № 2, – s. 156-162.

[34] Краюшкина, Т. Чудесные дети и их появление на свет в русских народных волшебных сказках Сибири и Дальнего Востока // – Улан- Уде: Вестник Бурятского Государственного Университета, 2009. №10. – с. 277.

öz dilindən eşidirik: "*Atam adın deirsən – Qağan Aslan*"[35]. Burda totem-əcdad ata haqda yaddaşda qorunub saxlanılan informasiyalar səslənir. M.İmanov Basat kimi adlı-sanlı qəhrəmanın dilindən söylənilmiş fikirlərə əsasən onun zoomorfik mənşəyə bağlandığını bildirir[36]. "Südəmən" [37] və "Aylülə" [38] nağıllarında ayının heyvan ata rolunda iştirak etməsi bəlli olur. Hər iki mətndə qızın ayıdan uşaq dünyaya gətirməsi bir möcüzə kimi qarşılanır. *"Tumar Pəhləvan" nağılında qəhrəman düşmən qızını ayı ilə cinsi yaxınlığa məcbur edir və doğulan uşağın başını kəsib anasına yedirdir. "Hatəmin nağılı"nda dərviş arvadını meymunla yatmağa məcbur edir və doğulan uşağı öldürərək onun yağını adamların yeməyinə qa-tır*[39]. "Canavar oğlu" nağılında isə "ana heyvan" formulu gerçəkləşir [40] . Elə Azərbaycan nağıllarına da rast gəlinmişdir ki, qəhrəman insanla heyvanın cinsi yaxınlığından deyil, məhz heyvana məxsus hər hansı bir elementin gələcək ana tərəfindən qida kimi qəbulundan sonra doğulur. Müxtəlif aspektlərdən tədqiqata cəlb etdiyimiz "Reyhanın nağılı"nda dərya atlarının ayğırının su içdiyi gölməçə möcüzəli mayalanmaya səbəb olan sakral məkan kimi motivləşdirilir. Övladını bu gölməçə suyunu içmə səbəbi ilə dünyaya gətirmiş ana Ayğır Həsən haqda bunları

---

[35] Kitabi - Dədə Qorqud / tərt.ed. F.Zeynalov, S. Əlizadə. – Bakı: Yazıçı, – 1988. – s. 102.

[36] Kazımoğlu, M. Folklorda obrazın ikiləşməsi / M.Kazımoğlu. – Bakı: Elm, – 2011. – s. 30.

[37] Azərbaycan folklor külliyyatı: [30 cilddə] / tərt. ed. H.İsmayılov, O.Əliyev. – Bakı: Nurlan, – c.5. – 2007. – s. 280.

[38] Azərbaycan folklor külliyyatı: [30 cilddə] / tərt. ed. H.İsmayılov, O.Əliyev. – Bakı: Nurlan, – c.4. – 2007. – s. 264.

[39] Əsgər, Ə. Azərbaycan sehrli nağıllarında qəhrəman / Ə.Əsgər. – Bakı: Elm və təhsil, – 2017. – s. 73-74.

[40] Azərbaycan folklor külliyyatı: [30 cilddə] / tərt. ed. H.İsmayılov, O.Əliyev. – Bakı: Səda, – c.2. – 2006. –s. 319.

deyir: "*Oğlumun canında bəzi at nişanları var*"[41]. Övladı olmayan qadınlarla bağlı təşkil olunmuş ritualların bəzilərində isə heyvanlara aid atributların – elementlərin nizam yaratma gücünə inam nümayiş olunur: "*Uşağı olmayan qadın içinə ilan qabığı, qurd kəlləsi salınmış suda imdikdən sonra onun boynuna uşaq düşəcəyinə inanılırdı*"[42].

**"Möcüzəli doğulan qəhrəmanları himayə edən müqəddəslər və demonik varlıqlar"** adlanan III paraqrafdan aydın olur ki, möcüzəli şəkildə doğulan qəhrəmanlar hələ dünyaya gəlməmişdən öncə qeyri-adi mənşəyi olan qüvvələr tərəfindən izlənilir. Bu izlənilmə prosesi bir neçə mərhələyə bölünür. İlk mərhələ dedikdə (yenə də yaradılış mətnlərinə nəzər salmaq lazım gəlir) o başa düşülür ki, burda insanın yaradılması tanrının və ya tanrıların öz arzusu olaraq həyata keçirilir. AFA-nın XI cildində oxuyuruq ki, övladları olmasa da, Allaha şükür edənlərə Allah övlad verər[43]. "Dədə Qorqud kitabı"nda diqqətimizi cəlb edən epizodlardan biri budur – Allah bir ağzı dualının alqışı ilə övlad verdi. Və ya "Bamsı Beyrək" boyunda övladsız olan Baybörə özü deyir ki, Allah məni qarğayıbdır[44]. Bu dünyagörüşünün semantikası ona əsaslanır ki, Azərbaycan folklorunda insanın yaradılışı və ya doğuluşu Allahın qüdrəti ilə hesablanır, bu baxımdan, insanların dünyaya möcüzəli şəkildə gəlməsi yorumları diqqət çəkir. Bu yorumlar

---

[41] Azərbaycan nağılları / tərt.ed. Ə.Axundov. – Bakı: Şərq-Qərb, – c.4. – 2005. – s. 131.

[42] Azərbaycan folklor antologiyası: [23 cilddə] / Qaraqoyunlu folkloru / topl. və tərt. ed. H.İsmayılov, Q.Süleymanov. – Bakı: Səda, – c. 7. – 2002. – s. 23.

[43] Azərbaycan folklor antologiyası: [23 cilddə] / Şirvan folkloru / topl. S. Qəniyev, tərt. ed. H.İsmayılov, S.Qəniyev. – Bakı: Səda, – c.11. – 2005. – s. 119.

[44] Kitabi-Dədə Qorqud / tərt.ed. F.Zeynalov, S. Əlizadə. – Bakı: Yazıçı, – 1988. – s. 52.

söyləyicilər tərəfindən əlavə edilmişdir. "*Quru daşa can verən Allah*"[45] elə məhz həmin möcüzəli yaradılışla bağlı inancdır. Digər inancın semantikası da fərqli deyildir: "*Dirsə xan arvadının sözü ilə böyük bir məclis qurdurdu... Allahdan istəyini dilədi. Allah bir ağzı dualının alqışilə övlad verdi*"[46]. Sözügedən folklor nümunələrinin məzmunundan aydın olur ki, "Tanrı *"sakrallaşan varlıq kimi cazibə qüvvəsinə malik olduğundan etalonlaşıb kütləleri arxasınca aparır"* [47].

İlk insanın torpaqdan yaradılması ideyasının tanrıya aid olması da folklor mətnlərində təsvir olunmuşdur.

Əgər qəbul ediriksə ki, Azərbaycan folklorunda geniş yayılmış Qarı nənə obrazı da Yer Ananın həyatverici və qurucu funksiyalarını səciyyələndirir[48], deməli, həm də milli folklorda Ulu Ana – Yer Ana – Qarı nənə kompleksindən qopma hami ruhlar üzərində dayanmalıyıq. (Burda, əlbəttə ki, doğuluş motivində iştirak edən hami ruhlar, yəni sakral qoruyucular nəzərdə tutulur). Bu barədə etdiyimiz məruzə beynəlxalq konfrans materialının dərgisində nəşr olunmuşdur[49].

Azərbaycan-türk mifologiyasında Ulu ana kompleksindən gəlmə şaman obrazının atributlarını özündə daşıyan dərviş

---

[45] Qarabağ: folklor da bir tarixdir / topl. və tərt. ed. L.V.Süleymanova . – Bakı: Zərdabi LTD, – 6-cı kitab. – 2013. – s. 43.

[46] Kitabi - Dədə Qorqud / tərt.ed. F.Zeynalov, S. Əlizadə. – Bakı: Yazıçı, – 1988. – s. 35.

[47] Qafarlı, R. Mifologiya: [6 cilddə] / R.Qafarlı. – Bakı: Elm və Təhsil, – c.1: Mifogenez: rekonstruksiya, struktur, poetika. – 2015. – 454 s.

[48] Bəydili, C. Türk mifoloji sözlüyü / C.Bəydili. – Bakı: Elm, – 2003. – s. 396.

[49] Məmmədova, X. Doğuluşu himayə edən Yer Ana obrazının Azərbaycan folklo-rundakı paradiqmaları // III Uluslararası Dergi Karadeniz Sosyal bilimler Sempozyumu, Bakü: İlim ve Tahsil, – 19-21 kasım, – 2019, – s. 206-211.

obrazı da nağıl-dastan ənənəsində doğuluşla bağlı xaosun nizamlayıcısı kimi yadda qalmışdır.

Xızır kimi övliya olub, amma türk folklorunda əsas – baş obraz kimi Xızırı geridə qoyan Dədə Qorqud da möcüzəli doğuluş motivinin qəhrəmanlarını mühafizə edib, qoruyan müqəddəslər arasındadır.

**“Epik, lirik və dramatik folklorda möcüzəli doğuluş motivi”** dissertasiyanın II fəslinə verilən addır**.** Bu fəslin I paraqrafı **“Epik folklorda möcüzəli doğuluş motivi”** adlandırılıb. Epik ənənəyə daxil olan janrlarda təsvir olunan möcüzəli doğuluş motivinin araşdırılmasına ilk olaraq **“Əfsanələrdə möcüzəli doğuluş motivi”** adlı bənddəki təhlillərlə başlanılmışdır**.**

Bəzi əfsanə mətnlərində nağıl və dastanlarımızdan fərqli olaraq, doğuluş motivi mərhələlərə bölünmür, yəni bu motivin gerçəkləşməsi hədəf seçilmir. Törəyiş mətnlərində, ağacdan, quşlardan heyvanlardan yaranmış insanlar sonradan əfsanə mətnlərində yenidən həmin cansız varlıqlara çevrilərək yarandığına yenidən dönmə formuluna adekvat olurlar. “Yalqız ağac” [50] əfsanəsinə diqqət cəmləyək. Bu əfsanə, daşın və ağacın insan mənşəli olduğunu göstərməklə bərabər yuxarıda dediyimiz – doğulduğuna – yarandığına yenidən dönmə formulunu aktual edir. Bəli, burada möcüzəli doğuluş motivi qətiyyən nəzərə çarpmasa da, insanın çevrildiyi cansız varlıqlardan həm də törəmiş olduğu mifik kodlara aydınlıq gətirilir.

“Lələ” əfsanəsi Azərbaycan folklorunda yayılmış əfsanələr içərisində daşdan yaranma motivini təsvir edən yeganə mətnlərdəndir:

*“Ləliyəm başdan mən*

---

[50]Azərbaycan folklor antologiyası: (Naxçıvan nümunələri) / [23 cilddə] / top. A.Cəfərova, tərt. ed. Ə.Ələkbərli, Ə. Cəfərova. – Bakı: Nurlan, – c.23. – 2011. – s. 68.

*Yemərəm hər aşdan mən*
*Nə anam var, nə atam*
*Yaranmışam daşdan mən"*[51].

Paraqrafın II bəndi **"Rəvayətlərdə möcüzəli doğuluş motivi"** adı ilə təqdim olunmuşdur.

Rəvayət mətnlərində özünü göstərən doğuluş motivində Halın və ya Halla bağlı elementlərin malik olduğu funksionallıq bu cür sıralanır:

- Doğan qadına himayədarlıq etmək
- Doğan qadına zərər yetirmək (onu və uşağını öldürmək cəhdləri)
- Halın insanla evlənib uşaq dünyaya gətirməsi

İkinci missiyası, yəni Halın doğuluş anında peyda olub prosesin nəticəsinə təsir etmək gücünü əks etdirən rəvayətlər çoxsaylıdır. Bu rəvayətlərdə Halın doğuş zamanı möcüzə yaratmaq niyyətində olduğu görünür.

Azərbaycan foklorunda peyğəmbərlərlə bağlı mətnlərin bir qis-mində möcüzəli doğuluş motivinə rast gəlinir. Yazıya alınmış "Məhəmməd peyğəmbərin doğuluşu" adlı rəvayət mətninin ilk cümləsindən gələcək peyğəmbərin doğuluşu haqqında proqnoz verilir: "*Yazılmışdı kitaba ki, Məhəmməd adında bir şəxs gələcək dünyaya, dün-yanı o idarə eliyıcək"* [52] . Qeyd olunan mətndə gələcək peyğəmbərin doğuluşunun əvvəlcədən proqnoz edilməsi möcüzəli mayalanmanı əvəz edir. Azərbaycan folklorunda İsmayıl, Süleyman, Davud və Nuh peyğəmbərlə bağlı mətnlərin də bəzilərində doğuluş motivinə rast gəlinir. Bir qisim rəvayətlər isə pir sahibləri və onların doğuluş möcüzələrinə həsr olunmuşdur.

---

[51] Qarabağ: folklor da bir tarixdir / topl. və tərt. ed. L.V.Süleymanova . – Bakı: Zərdabi LTD, – 6-cı kitab. – 2013. – s. 41.

[52] Qarabağ: folklor da bir tarixdir / topl. və tərt.ed. İ.Rüstəmzadə, Z.Fərhadov. – Bakı: Elm və təhsil, – 1-ci kitab. – 2012. – s. 43.

**“Nağıllarda möcüzəli doğuluş motivi”** növbəti bəndlərdən birinin adıdır. “*Epik qəhrəmanı poetik şəkildə mükəmməlləşdirməyə can atan xalq təxəyyülü cəmiyyətin inkişafı ilə ilkin mifoloji məzmununu itirən daha qədim dövrün mifoloji təsəvvürləri və etiqadlarına əsaslanan ənənəvi nağıl motivlərinə həvəslə müraciət etmişdir”*[53].

Nəzər salsaq, görərik ki, Azərbaycan nağıllarında möcüzəli doğuluş motivi övladsızlıq motivi ilə birbaşa bağlıdır. Yəni törəyiş – yaradılış mətnlərindən fərqli olaraq nağıllarda doğuluş motivi birbaşa olmur. Əksər hallarda padşahların, bəzən isə digər təbəqəyə mənsub insanların nağıl öncəsi gileyi məhz övladsızlıqla bağlı olur. Bu, etnik yaddaşda xanların həyatı ilə bağlı epikləşmiş əhvalatlardan biri kimi tanınır.

Hadisələrin düyün nöqtəsi övladsızlıq üzərində qurulan nağıllarda zalım padşahların övlad üzünə həsrət qalmaları onların zülmkarlığı, qaniçənliyi ilə motivləşdirilir. Xalq diplomatiyasına görə, sehrli nağıllarımızın çoxunda təsvir olunan övladsızlıq motivinin səbəbi yönəlmiş haqsızlıqlar, ölkəni idarə edən hökmdarların səriştəsizliyi və antidemokratik siyasətidir.

Problemi şərh edib dərindən araşdırmağa cəhd göstərdiyimiz tədqiqat dövründə aşkarladığımız aşağıdakı növləri Azərbaycan nağıllarına əsasən tərtib etmişik:

**1. Möcüzəli mayalanma vasitələrinə görə:**

1.1. Sehrli almadan doğuluş;

1.2. Sehrli almanın qabığından doğuluş;

1.3. Sehrli armuddan doğuluş;

1.4. Sehrli dərmandan doğuluş;

1.5. Yumurtadan (quş yumurtası) doğuluş;

1.6. Sudan doğuluş;

---

[53] Жирмунский, В. Тюркский героический эпос / В.Жирмунский. – Ленинград: Наука, – 1974. – с. 224.

1.7. Gün işığından doğuluş;
1.8. Ceyran ətindən doğuluş;
1.9. Ölüdən doğuluş (meyidin bir parçasını yemək və ya ona toxunmaqla);
1.10. Tüpürcəkdən – ağız suyundan doğuluş;
1.11. Sehrli muncuqdan doğuluş;

**2. Qeyri-insani varlıqlarla əlaqəyə-yaxınlığa görə:**

2.1. Ayıdan doğuluş;
2.2. Canavardan doğuluş;
2.3. Cindən doğuluş;
2.4. Şeytandan doğuluş;
2.5. Məleykədən doğuluş;
2.6. Divdən doğuluş;
2.7. Goreşəndən doğuluş;

3. Təbiət obyektlərinin möcüzəsi ilə:

3.1. Ağacdan doğuluş;

**4. Qeyri-adi formaya malik olmasına görə:**

4.1. Natamam doğulma (bir cüt qaş şəklində, ətrafsız, digər orqanları olmadan, ət kimi, tüksüz və s.);
4.2. Üzərində qiymətli metal ilə doğuluş (qızıl, gümüş);
4.3. Üzərində dəmir əşya ilə doğuluş (qıfıl, açar);
4.4. Doğulan uşağın dişləri dəmirdəndir;
4.5. Yarı ilan şəklində doğuluş;
4.6. Ölü doğuluş;

**5. Həyata keçirilmiş müəyyən fəaliyyət aktlarına görə:**

5.1. Alqışla doğuluş;
5.2. Dua ilə (yalvarışla) doğuluş;
5.3. Xeyriyyəçiliyin səbəb olduğu doğuluş;
5.4. Cəmiyyətdəki özbaşınalığa son qoyulmağa cavab olaraq doğuluş;

**6. Möcüzəli mayalanmanın əvəz etdiyi digər proseslər:**

6.1.Yuxugörmələr;
6.2. Taleyazmalar;

6.3. Falabaxmalar (Öncəgörmələr).

**“Dastanlarda möcüzəli doğuluş motivi”** II fəslə daxil olan I paraqrafın sonuncu bəndidir. Dastan qəhrəmanlarının qeyri-adi doğuluşu, sehrli və möcüzəli qüvvələrin yardımı ilə dünyaya gəlməsi tipoloji bir motiv kimi əksər dünya xalqlarının folklorunda rast gəlinən bir məsələdir. Milli folklorda möcüzəli doğuluş motivinin kəmiyyət göstəricisi ikinci yerdə dastanları təyin etməkdədir. Bu motiv qəhrəmanlıq və məhəbbət dastanlarımızda bərabər şəkildə təsvir edilmişdir. M.Cəfərli yazır ki, Azərbaycan dastan mətnlərində qeyri-adi doğuluş, yaxud möcüzəli doğuluş süjet hadisəsi olmaqla öz motivlənməsində aşağıdakı hadisələri gerçəkləşdirir:

*1. Var-dövlət paylama, xeyirxah işlər görülməsi yolu ilə alqış-duanın müstəcəb olması nəticəsində uşağın doğulması;*

*2. Dərvişin verdiyi almanı valideynlərin yeməsi nəticəsində uşa-ğın doğulması;*

*3. Digər tipli möcüzəli doğuluşlar”*[54].

Məhəbbət və qəhrəmanlıq dastanlarında doğuluş motivinin möcüzəli xarakterini incələyərkən bəzi qənaətlərimiz oldu. Uşaqsız valideynlərin müəyyən öhdəlikləri yerinə yetirməli olduqdan sonra möcüzəli şəkildə övladlarının dünyaya gələcəklərinə dair kök salmış inamları bir daha vurğulamaq istərdik. Bu inamlara görə, arzu-diləyin hasil olması üçün gələcək qəhrəmanın valideynlərinin yerinə yetirməli olduqları müəyyən öhdəlikləri vardır. Yəni möcüzəli hesab edilən dastan qəhrəmanları aşağıdakı şərtlər əsasında doğularlar:

1. Nəzir-niyaz – sədəqə paylamaq;
2. Əhatəli xeyriyyəçilik etmək;
3. Sosial rifah yaratmaq;
4. Tanrıya yalvarmaq, ibadət etmək;

---

[54]Cəfərli, M. Dastan və mif / M.Cəfərli. – Bakı: Elm. – 2001. – s. 27.

5. Alqış söyləmək, xeyir-dua etmək;
6. Dərvişin verdiyi sehrli almaları yemək.

"Dil və ədəbiyyat" jurnalının 2019-cu ildə nəşr olunmuş 1-ci nömrəsində dastanlarda möcüzəli doğuluş motivinin funksional xarakterindən bəhs edilmişdir[55].

II fəslin **"Lirik və dramatik folklorda möcüzəli doğuluş mo-tivinin izləri"** adlı II paraqrafında digər 2 növə daxil olan janrlarda təsadüf edilən möcüzəli doğuluş epizodlarına aydınlıq gətirilir. Bu paraqrafın "**Əmək nəğmələri və mərasimlərdə möcüzəli doğuluş motivi"** adlı I bəndində maraqlı folklor mətnlərinə istinad edilir. İlk əmək nəğmələrində Adəm atanın da adının çəkilməsi bir daha sübut edir ki, milli folklorun arxaik janrlarından olan çoban nəğmələri içərisində möcüzəli yaranmış ilk insanın adı bəzi məqamlarda xatırlanır:

"*Adəm ata gələndə,*
*Qızıl öküz duranda,*
*Qızıl buğda bitəndə,*
*Dünya binnət olanda,*
*Musa çoban olanda,*
*Şişliyimiz erkəcdi*"[56].

Doğuluşun baş verməsi üçün alqışın deyilməsi böyük əhəmiyyət kəsb edib. "Dədə Qorqud" oğuznamələrində çox məşhur olan "Qaba Ağacın kəsilməsin" alqışının mənası ona uyğundur ki, soyun, nəslin davam eləsin. Bir ağzı dualının alqışı ilə səslənmiş xeyir-dualar, inanca görə, keçərli sayılmışdır. Folklor antologiyalarında nəşr olunmuş bəzi alqışların məzmunu arzulanan nəsil-soy artımını vurğu-

---

[55] Şaiqqızı, X. Dastanlarda möcüzəli doğuluş motivinin funksional xarakteri // – Bakı: Dil və ədəbiyyat, – 2019. № 1(109), – s. 233-236.

[56] Nəğmələr, inanclar, alqışlar / topl. və tərt. ed. A.Nəbiyev. – Bakı: Yazıçı, – 1986. – s. 32.

layırır: "*Yeddi oğlan babası olasan*" [57] . "*Oğullu-qızdı olasız*"[58].

İnancların tətbiq olunduğu məqam hesab olunan mərasimlərdə də alqışlar söylənilmişdir.

Qurbankəsmə ayini xüsusi təmtəraqla qeyd olunmuşdur. Adətən müqəddəs hesab edilən ziyarət yerlərində – pirlərdə, ocaqlarda qurbanlar kəsilmişdir. Folklor ezamiyyətində olduğumuz Quba bölgəsində bu tip ayinləri əyani şəkildə izləmişik. Xələnc, Həzrət Baba, Xıdır Zində pirlərinə ziyarətə gedənlərin valideyn olmaq arzusu gerçəkləşdiyi üçün qurban kəsib paylamışlar. İnanca görə, bir müddət öncə onlar bu qurbanı kəsmək üçün əhd etmiş, arzuları gerçəkləşdiyi üçün ayini həyata keçirmişlər. Söyləyicilərdən toplanmış informasiyalar pir inancının çox hallarda doğuma yönəldiyini təsdiq edir. Uşağın dünyaya gəlməsi üçün qurbankəsilmə mərasimlərində qoyunların qurban edilməsi milli ənənədə daha çox yayılmışdır. Müşahidələrimizə əsasən deyə bilərik ki, bu ritual tək və kollektiv halda həyata keçirilir, tutulan niyyətlər sırasında övlad diləmək arzusu birinci gəlir. Göründüyü kimi, doğumla bağlı bəzi ovsunlarda əsas diqqət çox vaxt hamilə qadınlara yönəlmişdir. Hamilə qadının hansı cinsə aid övladı olacağını bilmək, hamiləlik dövründəki yuxuları yozmaq və s. sınamalar doğumla bağlı təyinedici vasitələrdən hesab olunmuşdur. Folklor antologiyalarında yuxuyozumları ayrıca başlıq altında dərc edilmişdir ki, aralarında doğulacaq körpənin əlamətlərinin öncədən təyinedilməsi də dayanır.

Bəzi inanclarımızda gələcəkdə doğulacaq körpənin nəinki cinsiyyətini, hətta xarakterini təyin etməyin mümkünlüyü

---

[57] Azərbaycan folklor antologiyası: [23 cilddə] / İraq-Türkman cildi / tərt ed: Q.Paşayev, Ə.Bəndəroğlu. – Bakı: Nurlan, – c.2. – 2009. – s. 94.

[58] Azərbaycan folklor antologiyası: [23 cilddə] / Göyçə folkloru / topl. və tərt. ed. H. İsmayılov. – Bakı: Səda, – c. 3. – 1999. – s. 99.

nəzərə çatdırılıb. Azərbaycan türklərinin şifahi poeziyasında doğumla bağlı müxtəlif nəğmələrə də rast gəlirik. Bu nəğmələrdə analara salamatlıq arzusu, uşağın sağlamlığı, nəslə çəkməsi, ataya oxşaması və s. tərənnüm edilmişdir. Doğum nəğmələri ananın hamiləlik dövründən başlayıb, doğub qurtarana qədərki dövrü əhatə edir.

**"Aşıq poeziyasında möcüzəli doğuluş"** adlı II bənd möcüzəli doğuluş motivini araşdırmaq məqsədilə üz tutduğumuz yeni mənbələr haqqındadır. Aydın olur ki, müxtəlif folklor örnəkləri rəvayət-nağıl halında mövcud olmuş, elə ordan da aşıq yaradıcılığına gəlmişdir[59]. Aşıq yaradıcılığında da bəşəriyyətin təşəkkül tapması ilə bağlı dini kitablarda əksini tapan mətnlərin ideyasına inam və bu ideyanın tərənnümünə geniş yer ayrılmışdır. İnsan övladının məhz tanrı tərəfindən yaradılmış olduğuna dair fikirlərin idealist izahı qoşma və gəraylıların bir qismində öz əksini tapmışdır.

Möcüzəli doğuluş motivinin təsvir olunduğu antropoqonik miflərin aşıq poeziyasına təsiri ilə bağlı beynəlxalq konfransların birində məruzə edilmişdir[60].

**"Oyun və tamaşalarda möcüzəli doğuluş"** bəndindən aydın olur ki, oynayaraq sirli görünən hadisələrə, ələlxüsus doğuluş prosesinə münasibət bildirilməsi milli bayram mərasimlərində oynanılan oyun və tamaşaların timsalında baş vermişdir. Bəzi detallar üzərində müşahidələr aparılmışdır. Kosanı ikicanlı kimi təqdim edən bayram tamaşasında səslənən məşhur nəğmə xalq arasından toplanılmışdır. Kosa-

---

[59] Təhmasib, M. Seçilmiş əsərləri / M.Təhmasib. – Bakı: Mütərcim, – c.1. – 2010. – s. 251.

[60] Memmedova, H. Mucizevi doğum motivinin mitolojik qaynağı – ilk insanoğ-lunun yaranması miti ve aşık şiiri // II Uluslararası Develi Aşık Seyrani ve türk kültürü kongresi // Aşık Seyrani bildirileri, – 3. kitab. Kayseri: – 10-11-12 ekim, – 2018, – s. 390-394.

kosa və Maraloyunu tamaşalarının mahiyyəti aydınlaşdırılır, möcüzəli doğuluş motivinin müxtəlif hərəkətlərlə təqdim olunmasından bəhs olunur.

Dissertasiyanın "**Nəticə**" hissəsində əsas müddəalar ümumiləşdirilir, insan yaşamının başlıca (önəmli) keçid donəmlərindən biri hesab olunan doğuluşun folklor mətnlərində motivləşdirilməsinə və lap başlanğıcda möcüzə kimi qəbul edilməsinə diqqət çəkilir. Əski etiqadlara, mifoloji təsəvvürlərə söykənən doğuluş inanclarının, demək olar ki, bütünlüklə folklora daşındığı vurğulanır. Araşdırma nəticəsində sözügedən motivin Azərbaycan türklərinin də genetikasına, ruhuna doğma olduğu və milli folklor ənənəmizdə özünəməxsus yer tutduğu aydınlaşır.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı tezis və məqalələrində öz əksini tapmışdır:**

1. Möcüzəli doğuluş motivinin tarixi kökləri: (Doğuluşun torpaq stixiyası ilə bağlılığı) // Bakı: Dədə Qorqud, elmi-ədəbi toplu, – 2017. № 2 (61), – s. 132-140.
2. Möcüzəli doğuluş motivində od və su kultları // – Bakı: Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, – 2018. № 2, – s. 156-162.
3. Möcüzəli Doğuluş Motivində Ağac Kultu // IV Türk kültür coğrafiyasında egitim ve sosyal bilimler simpozyumu, – Bakı: 27-30 Haziran, – 2018, – s. 144.
4. Dastanlarda möcüzəli doğuluş motivinin funksional xarakteri // – Bakı: Dil və ədəbiyyat, – 2019. № 1(109), – s. 233-236.
5. Günahsız mayalanma mifi – möcüzəli doğuluş motivinin əsas mifoloji qaynaqlarından biri // Bakı: Dədə Qorqud, elmi-ədəbi toplu, – 2019. №1 (64), – s. 111-119.
6. Möcüzəli doğuluş motivi və inisiasiya // Bakı: Filologiya məsələləri, – 2019. №2, – s. 345-352.

7. Alma – möcüzəli doğuluş motivinin prioritet meyvəsi kimi // Azərbaycan elminin və təhsilinin müasir problemləri mövzusunda Beynəlxalq Elmi Konfransının materialları, Bakı: Zərdabi Nəşr, – Qazax : 25 may, – 2019, – s. 373-378.

8. Mucizevi doğum motivinin mitolojik qaynağı – ilk insanoğlunun yaranması miti ve aşık şiiri // II Uluslararası Develi Aşık Seyrani ve türk kültürü kongresi // Aşık Seyrani bildirileri, – 3. kitab. Kayseri: – 10-11-12 ekim, – 2019, – s. 390-394.

9. Doğuluşu himayə edən Yer Ana obrazının Azərbaycan folklorundakı paradiqmaları // III Uluslararası Dergi Karadeniz Sosyal bilimler Sempozyumu, Bakü: İlim ve Tahsil, – 19-21 kasım, – 2019, – s. 206-211.

10. Rəvayətlərdə möcüzəli doğuluş motivi // Bakı: Dədə Qorqud, elmi-ədəbi toplu, – 2020. №1 (68), – s. 115-122.

11. История исследования фольклорного мотива чудесного рождения // – Алматы: Вестник Казахского Национального Университета им. Аль-Фараби. Серия филология, 2020. № 2 (178). – с. 74-81.

12. Azerbaycan masallarında mucizevi doğum motifi // Uluslararası Türk kültürü ve Sanatı simpozyumu , – Ankara: – 29-30 oktyabr, – 2020, – cilt 5, – s. 231-247.

13. İlkin əmək nəğmələri və mərasimlərdə möcüzəli doğuluş motivi // 4-cü Beynəlxalq Novruz konfransı, Qarabağ, Azərbaycan: 18-21 mart, – 2021, – cild 3, – s. 425-439.

14. Dərvişlər möcüzəli doğulan qəhrəmanların sakral qoruyucusu kimi // "Ziyalı işığında" Ramazan Qafarlı – 70. Beynəlxalq ictimai və mədəni elmlər konfransı // Azərbaycan – Bakı: – 15-16 iyul, – 2021, – s. 248-255.

Dissertasiyanın müdafiəsi _____________2022-ci il tarixində saat ______________Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.27 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1001, Bakı şəhəri, 8-ci Kiçik Qala döngəsi, 31, AMEA Folklor İnstitutu

Dissertasiya ilə AMEA Folklor İnstitutunun Elmi Kitab-xanasında tanış olmaqmümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Ali Attestasiya Komissiyasının (aak.gov.az) və AMEA Folklor İnstitutunun (folklor.az) rəsmi internet saytlarında yerləşdirilmişdir.

Avtoreferat ______________ 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb:

Kağızın formatı:

Həcm:

Tiraj: